14 (1371) 10-16 aprel 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## ÖLKƏLƏRİMİZ ARASINDA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞIMIZIN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİNƏ YAXŞI İMKAN VAR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul edib.

Prezident İlham Əliyev son dövrlərdə Azərbaycanın və İranın yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensiv xarakter daşımasını məmnunluqla qeyd edərək, bunun ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə və ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə yaxşı imkan yaratdığını deyib.

Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının iclasının keçirilməsini müsbət qiymətləndirib və Komissiyanın gündəliyində iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün vacib layihələrin olduğunu qeyd edib.

İranın ölkəmizlə münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu deyən Fərzanə Sadiq xalqlarımızın tarixi, mədəni, dini və qohumluq əlaqələrinin olduğunu bir daha vurğulayıb.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi layihəsi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## “BİZ CƏNUBİ QAFQAZ BORU KƏMƏRİNİ, TANAP-I VƏ TAP-I GENİŞLƏNDİRMƏLİYİK”

“İndi Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP həmin bu dəhlizin 3 ayrılmaz hissəsidir”.

Bu barədə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında bildirib.

*“Onlar tam iş gücündə işləyir və biz onları genişləndirməliyik”*, - deyən dövlətimizin başçısı əlavə edib ki, əlbəttə, bunun üçün bizə maliyyələşmə lazımdır. *“Burada biz vacib bir nöqtəyə gəlib çıxırıq. Biz dəfələrlə bunu qeyd etdik ki, beynəlxalq maliyyə təsisatları, o təsisatlar ki, məhz faydalı qazıntılar üçün layihələrin maliyyələrinin dayandırılması qərarına gəlmişdilər, bəlkə də bu siyasəti dayandırsınlar”*, - deyə Prezident vurğulayıb.

## “AÇG”, “ABŞERON” VƏ “ŞAHDƏNİZ” BİR ÇOX ÖLKƏLƏRİN ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ TÖHFƏ VERİR”

“Azəri-Çıraq-Günəşli”, “Abşeron” və “Şahdəniz” bir çox ölkələrin enerji təhlükəsizliyinə töhfə verir”.

Bu fikri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında səsləndirib.

*“Bir neçə ildən sonra bir çox digər neft-qaz yataqlarının da istismarına başlanacaq ki, onlarla bağlı müqavilələr artıq imzalanıb, işçi proqram həyata keçirilir. Boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəmərləri və həmçinin Cənubi Qafqaz Boru Kəməri bütün iştirakçılarla birlikdə görülmüş işlərin nəticəsidir”.*

## Xankəndidə geosiyasi dəyişikliklər və onların regional suverenliyə təsiri məsələləri müzakirə edilib

VII ADA Siyasi Forumu çərçivəsində Qarabağ Universitetində keçirilən “Geosiyasi dəyişikliklər və onların regional suverenliyə təsiri” mövzusunda panel iclas yekunlaşıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyevin moderatorluğu ilə keçirilən iclasda çıxışçılar qlobal güc balansındakı dəyişikliklərin milli suverenliyə təsiri, bölgədə strateji sabitliyin saxlanması və məsuliyyətli tərəfdaşlıq məsələlərinə toxunublar.

Fərid Şəfiyev çıxışında bildirib ki, dünyada siyasətçilərə və səfirlərə münasibət birmənalı deyil. Onun sözlərinə görə, Qarabağın işğalı dövründə ABŞ, Kanada və Çexiyadan olan bəzi siyasətçilər tez-tez Azərbaycanın mövcud vəziyyətlə barışmalı olduğunu bildirirdilər. Lakin bütün bu yanaşmalara baxmayaraq, Azərbaycan ərazi bütövlüyünü bərpa etməyə nail oldu.

Türkiyə Prezidentinin baş müşaviri Çağrı Erhan bildirib ki, Qarabağ Azərbaycanın mədəniyyət, sənaye və turizm mərkəzidir. Hazırda dünyada müxtəlif siyasi və iqtisadi güc mərkəzləri mövcuddur. Qarabağın uzun müddət işğal altında qalması Cənubi Qafqaz regionunda qeyri-sabitliyə səbəb olub. Hazırda Azərbaycan öz ərazi bütövlüyünü bərpa edən güclü bir dövlətdir.

Pekin Texnologiya İnstitutunun elmi işçisi Rachael Rudolph bildirib ki, regionda sülhün qorunmasının əsasında iqtisadi inkişaf dayanır. Onun sözlərinə görə, müxtəlif ticarət tərəfdaşlarının, sərmayə mənbələrinin və institusional əlaqələrin qurulması xarici təsirləri azaldır, həmçinin yerli və regional səviyyədə iqtisadi sabitliyi möhkəmləndirir.

Macarıstanın Danube İnstitutunun icraçı direktoru İstvan Kiss çıxışında qeyd edib ki, Macarıstan həmişə türklərin böyük dostu olub: *“Mənim həmişə türk xalqlarına böyük rəğbətim olub. Macarıstan daima türklərə dəstək göstərib və yaxın gələcəkdə də belə olacağına inanıram. Ona görə də hesab edirəm ki, Macarıstanın Türk dünyasına daxil olması xüsusi bir imtiyazdır”.*

Çin Xalq Respublikasının Şanxay Siyasi Elmlər və Hüquq Universitetinin professoru Hongsheng Sheng çıxışında dünyada baş verən hadisələrin ölkələrin daxilində necə təzahür etdiyi barədə danışıb. O bildirib ki, Çin danışıqlar vasitəsilə qarşılıqlı anlaşmanı dəstəkləyir. *“İqtisadi, sosial inkişaf sülhü daha da irəlilətməyə səbəb olacaq. O cümlədən bu, regionda stabilliyə şərait yaradacaq”, - deyə çinli ekspert əlavə edib.*

Panel sual cavab sessiyası ilə yekunlaşıb.

## BU GÜN ENERJİ TƏHLÜKƏSİZLİYİ MİLLİ TƏHLÜKƏSİZLİYİN AYRILMAZ HİSSƏSİDİR



“Bu gün heç vaxt olmadığı qədər enerji təhlükəsizliyi milli təhlükəsizliyin, ölkələrin təhlükəsizliyinin ayrılmaz bir hissəsidir və bu gün biz, həmçinin sənaye təhlükəsizliyi haqqında danışa bilərik”.

Bu sözləri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında söyləyib.

Dövlətimizin başçısı qeyd edib: *“Çünki sənayeni inkişaf etdirmək üçün bizə enerji ehtiyatları, neft-kimya məhsulları, gübrələr lazımdır. Azərbaycan isə xam neftin, təbii qazın, neft məhsullarının və gübrələrin istehsalçısı və ixracatçısıdır”.*

## “BİZİM QAZ TƏCHİZATIMIZIN AVROPADAKI COĞRAFİYASI BİRMƏNALI OLARAQ GENİŞLƏNƏCƏK”

“Bu gün Azərbaycan təbii qazı 12 ölkəyə çatdırır. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvləridir”.

Bu sözləri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında söyləyib.

*“Bizim qaz təchizatımızın Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək, çünki biz artıq qazpaylama şəbəkəsinin yaradılmasında bəzi Avropa ölkələrində işləyirik. Onların bəzilərində yoxdur, digərləri isə genişləndirilməlidir. Azərbaycan bunu etməyi planlaşdırır. Beləliklə, bizim qaz təchizatının coğrafiyası birmənalı olaraq genişlənəcək”.*

## “ƏMİN OLMALIYIQ Kİ, AVROPADA BİZİM TƏBİİ QAZA EHTİYAC OLACAQ”

“Biz əmin olmalıyıq ki, Avropada bizim təbii qaza ehtiyac olacaqdır. Yəni, biz əmin olmalıyıq ki, bir neçə il üçün bazar olacaq”.

Bu sözləri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında deyib.

Dövlətimizin başçısı əlavə edib: *“Əgər bizdə belə bir təminat olmasa, onda investor sərmayə yatırmayacaq, ölkələr sərmayə yatırmayacaq. Beləliklə, təbii qazın böyük bir qıtlığı yaranacaq. Bizim ehtiyatlar məlumdur. Biz yeni yataqlardan hasilatın başlamasını gözləyirik”.*




## “ŞƏRQİ ZƏNGƏZUR VƏ QARABAĞ BÖLGƏLƏRİNDƏ ÖZ İNVESTİSİYALARIMIZLA HİDROENERJİ POTENSİALIMIZI ARTIRIRIQ”

“Biz deyə bilərik ki, Azərbaycan enerji təhlükəsizliyində tərəfdaşlıq üçün daha mühüm rol oynayacaq”.

Bunu Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında bildirib.

Bu gün artıq investorlarımızla imzalanmış müqavilələrin olduğunu söyləyən dövlətimizin başçısı vurğulayıb: *“Bu, Günəş və Külək enerji stansiyalarına aid olan müqavilələrdir ki, 2030-cu ilə qədər 6 giqavat günəş və külək enerjisi təmin edəcək. Qeyd edirəm ki, nəticədə xeyli təbii qaza qənaət etmək imkanı yaranacaq ki, hazırda həmin qaz ölkə daxilində elektrik enerjisinin istehsalı üçün istifadə olunur və ixraca yönəldiləcək. Biz, eyni zamanda, öz investisiyalarımızla hidroenerji potensialımızı artırırıq, xüsusən də Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur və Qarabağ bölgələrində”.*

# Peşəkar mühasiblər və auditorlar üçün nəşr edilmiş kitabın təqdimatı keçirilib

***Auditorlar Palatasında 2025-ci ilin 4 aprel tarixində "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) təqdimat mərasiminə həsr edilmiş onlayn tədbir keçirilib.***

Tədbiri Auditorlar Palatasının sədri, professor Vahid Novruzov giriş sözü ilə açaraq qeyd edib ki, "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi" (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) Beynəlxalq Etika Standartları Şurası (İESCA) tərəfindən hazırlanmış və bütün dünyada peşəkar mühasiblər və auditorlar tərəfindən tətbiq edilmək üçün nəzərdə tutulmuşdur. Məcəllə 2024-cü ilin 15 dekabr tarixindən qüvvəyə minmiş və tətbiqinə başlanılmışdır.

Auditorlar Palatası 2008-ci ildən Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) tamhüquqlu üzvü olmaqla İFAC-a müraciətinə əsasən və bu beynəlxalq qurumun icazəsi ilə Məcəllə ingilis dilindən Azərbaycan dilinə tərcümə edilərək hazırlanmış və nəşr etdirilmişdir. "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)" bu peşənin ictimai maraqlar üzrə məsuliyyətini əks etdirərək, peşəkar mühasiblər üçün etikanın təməl prinsiplərini müəyyən edir. Bu prinsiplər peşəkar mühasibdən gözlənilən davranış standartlarını özündə ehtiva edir.







Məcəllə peşəkar mühasibdən təməl prinsiplərinə riayətetməmə ilə əlaqəli təhlükələrin müəyyən edilməsi, qiymətləndirilməsi və onları aradan qaldırmaq üçün müvafiq tədbirlərin görülməsi üçün tətbiq edilməsi tələb olunan konseptual əsasları müəyyən edir. Məcəllə mühasiblərə konseptual əsasları müxtəlif mövzulara tətbiq etməyə kömək etmək üçün həmin mövzular üzrə tələbləri və tətbiqi materialları özündə ehtiva edir.

Sonra Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Palatanın Şurası yanında Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri Nəcəf Talıbov çıxış edərək məcəllə barədə müfəssəl şərh təqdim etmişdir.

Nəşr etdirilmiş kitab xidməti istifadə üçün bir sıra dövlət qurumlarına, ali təhsil müəssisələrinə, peşəkar ictimai birliklərə göndərilmiş və Auditorlar Palatasının üzvlərinə paylanılmışdır.

Tədbirdə çıxış edənlər: Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və audit" kafedrasının müdiri Əvəz Ələkbərov, Naxçıvan Muxtar Respublikasının Maliyyə nazirinin müavini Elvin Əlimərdanov, Bakı Biznes Universitetinin rektoru İbad Abbasov, Azərbaycan Kooperasiya Universitetinin Elm və İnnovasiyalar üzrə prorektoru Bəyalı Ataşov, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Elmi işlər üzrə rəis müavini Cəmilə Namazova, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının İdarə Heyətinin sədri Nuriyyə Novruzova və Auditorlar Palatasının Şurası yanında Beynəlxalq Audit Standartları üzrə komitənin sədri, "ANR Audit" MMC-nin direktoru-auditor Namiq Abbaslı kitabın əhəmiyyətindən danışaraq onun tətbiqinin zəruri olduğunu vurğulayıblar.

**Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.**

## "Azərbaycan təkcə Mərkəzi deyil, bütün Avropa qitəsinin enerji təhlükəsizliyində əsas rol oynayır"



"Macarıstan Azərbaycanı Mərkəzi Asiya və Avropanın kəsişməsində yerləşən strateji tərəfdaş kimi qiymətləndirir və birgə enerji layihələrini həyata keçirməyə hazırdır".

Bu sözləri Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma ADA Universitetində keçirilən "İnnovativ yollarla yaşıl gələcəyə doğru" mövzusundakı beynəlxalq konfransda çıxış edərkən deyib.

***"Azərbaycan təkcə Mərkəzi Avropa üçün deyil, ümumilikdə Avropa qitəsinin enerji təhlükəsizliyində əsas rol oynayır. Azərbaycan ilə Macarıstanın əməkdaşlığı yalnız neft və təbii qaz sektorunu əhatə etmir. Azərbaycan, Gürcüstan, Rumıniya və Bolqarıstan ilə birlikdə Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan "Yaşıl Enerji Dəhlizi" layihəsi çərçivəsində də sıx tərəfdaşlıq edirik. Bu layihə bərpaolunan mənbələrdən əldə olunan elektrik enerjisinin təchizatını mümkün edəcək və təkcə Mərkəzi Avropa deyil, bütün region üçün rəqabət qabiliyyətini artıracaq",*** - deyə Tamaş Torma vurğulayıb.

Səfir, həmçinin qeyd edib ki, Macarıstan ilə Azərbaycan arasında əlaqələr strateji xarakter daşıyır və demək olar ki, bütün sahələrdə yüksək səviyyədə inkişaf edir.

## "Bərpa olunan mənbələrdən əldə edilən enerjinin 65 faizinin ixrac edilməsi planlaşdırılıb"

"Azərbaycanda həyata keçirilən yaşıl enerji layihələrinə fəal şəkildə sərmayə yatırılır. 2027-ci ilə qədər biz bərpa olunan enerji mənbələri sahəsində 10 layihə həyata keçirməyi planlaşdırırıq ki, bu da müəyyən edilmiş gücün təxminən 2 giqavatını və 2,7 milyard dollar məbləğində investisiyanın cəlb edilməsini təmin edəcək".

Bu sözləri energetika nazirinin müavini Orxan Zeynalov ADA Universitetində keçirilən "İnnovativ yollarla yaşıl gələcəyə doğru" mövzusunda keçirilən beynəlxalq konfransdakı çıxışında deyib.

O bildirib ki, yaşıl enerji istehsalı ilə əlaqədar Azərbaycanda həyata keçirilən layihələr iqtisadiyyatın və enerji balansının şaxələndirilməsinə töhfə verməklə yanaşı, həm də böyük iqtisadi fayda gətirir.



***"İlk öncə, bərpa olunan enerji mənbələrinin inkişafı iqlim dəyişikliklərinə qarşı dayanıqlılığı gücləndirir. İkincisi, elektrik stansiyalarında istifadə olunan əlavə qaz həcmlərini yönəltməyə imkan verir. 2027-ci ilə qədər isə dörd əsas strateji dəhliz üzrə növbəti addımların reallaşdırılması, 2030-cu ilə qədər isə bərpaolunan enerji mənbələri çərçivəsində istehsal olunan enerjinin 65 faizinin ixrac edilməsi planlaşdırılır",*** - deyə nazir müavini vurğulayıb.

## "Layihələrin nəticələri ilin sonuna qədər özünü göstərəcək"

"Azərbaycanın hazırda investorlarla imzaladığı müqavilələrin əksəriyyəti günəş enerjisi ilə bağlıdır və günəş enerjisinin inkişafına əsaslanır".

Bu sözləri Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) direktor müavini Rəna Hümbətova ADA Universitetində keçirilən "İnnovativ yollarla yaşıl gələcəyə doğru" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.

O bildirib ki, hazırda Azərbaycanın günəş enerjisi potensialı 23 meqavatdır.

***"Bərpa olunan enerji sahəsində layihələr davam edir və ümid edirik ki, nəticələr 2025-ci ilin sonuna qədər özünü göstərəcək. Biz hazırda dənizdəki potensialımızı ölçmək üçün "Nida" enerji sistemindən istifadə edirik. Enerji sistemi üzrə modelləşdirmə çox vacibdir. Ötən il biz tədqiqatı yalnız daxili bazarda apardıq. Bu çox vacib tədqiqat idi. Onlar, həmçinin elektrifikasiya, enerji səmərəliliyi tədbirlərini, eləcə də mobillik, müdafiə ssenarilərini əhatə edirdi. Ən vacib məsələ yaşıl enerji dəhlizlərinə dair tədqiqatımızı daxili bazarla birləşdirmək, inteqrasiya etməkdir. Çünki bu təkcə bizim üçün deyil, bütün tərəfdaşlarımız üçün çox əhəmiyyətlidir",*** - deyə direktor müavini qeyd edib.

## Pakistanla əsas investisiya layihələri və memorandumlar müzakirə edilib



Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun aprelin 8-də İslamabadda səfəri zamanı Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əsas investisiya layihələri və iki ölkə arasında nəzərdən keçirilən memorandumlar müzakirə edilib.

Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Darın rəhbərlik etdiyi nümayəndə heyəti Pakistanda səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti ilə danışıqlar aparıb.

Hər iki ölkə təşəbbüslərin yekunlaşdırılmasını sürətləndirmək barədə razılığa gəliblər.

## Maliyyə bazarlarının tənzimlənməsi sahəsində Qazaxıstanın təcrübəsi müzakirə olunub



Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov Qazaxıstanın Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyinin sədri Mədinə Abılkasımovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AMB-dən bildirilib ki, görüşdə Mərkəzi Bank tərəfindən "2024-2026-cı illərdə maliyyə sektorunun inkişafı Strategiyası" çərçivəsində icra olunan strateji təşəbbüslər barədə geniş məlumat Qazaxıstan nümayəndə heyətinin diqqətinə çatdırılıb. Görüş zamanı maliyyə sabitliyinin təmin olunması, bank və sığorta nəzarəti sahəsində tətbiq olunan yanaşmalar, həmçinin maliyyə bazarlarının tənzimlənməsi sahəsində Qazaxıstanın təcrübəsi müzakirə olunub.

Görüş qurumlar arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi imkanları və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

## İsrail şirkətləri ilə avtomobil və dəmiryolu nəqliyyatında əməkdaşlıq müzakirə olunub

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev İsrailin "ICL Group" və "Elbit Systems" şirkətlərinin rəhbər heyəti ilə görüş keçirib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, görüş zamanı "ICL Group" təmsilçiləri ilə avtomobil və dəmiryolu nəqliyyatı sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Orta Dəhliz çərçivəsində daşımaların həyata keçirilməsində şirkətin mümkün iştirak perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



"Elbit Systems" nümayəndələri ilə görüşdə isə kibertəhlükəsizlik, rəqəmsal dayanıqlılıq və süni intellekt sahələrində strateji əməkdaşlığın dərinləşdirilməsi məsələləri diqqətə çatdırılıb. Həmçinin ölkəmizdə mükəmməllik və təlim mərkəzlərinin yaradılması imkanları nəzərdən keçirilib.

# İqtisad elmində öz yeri olan peşəkar tədqiqatçı

***Azərbaycan iqtisad elmi öz yeni inkişaf mərhələsindədir. Ölkənin dinamik və keyfiyyətli inkişafı maliyyə-bank sisteminin fəaliyyətinin təkmilləşdirilməsini, mövcud resursların səmərəli istifadə ilə bağlı tədqiqatların genişləndirilməsini obyektiv zərurətə çevririr. Maliyyə-bank sektorunun məhsuldar fəaliyyəti ölkənin iqtisadi inkişafına bilavasitə güclü təsir edən amillərdən sayılır. Professor Zahid Məmmədov öz fəaliyyətini əsasən bu problemlərin həllinə həsr etmiş alimlərimizdən biridir.***

İqtisad elmləri doktoru (Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, Azərbaycan Respublikası), professor Zahid Fərrux Məmmədov Azərbaycanın nüfuzlu və tanınmış iqtisadçısı, təhsil və iqtisad elmi sahəsinə böyük töhfələr vermiş elm xadimi və Azərbaycan Respublikasının Əməkdar müəllimidir.

Zahid Məmmədovun elmi fəaliyyəti geniş spektri əhatə edir və əsasən maliyyə, bankçılıq və iqtisadi idarəetmə sahələrində dərin tədqiqatlarla seçilir. O, həm nəzəri, həm də tətbiqi aspektlərdə mühüm araşdırmalar aparmış və müxtəlif ölkələrin iqtisadi modelləri üzrə müqayisəli təhlillər təqdim etmişdir. O, elmi fəaliyyəti ilə yanaşı, pedaqoji və ictimai işləri ilə də seçilir. Tədqiqatçı alim elmi fəaliyyətində analitik yanaşma, dərin iqtisadi biliklər və geniş beynəlxalq təcrübə ilə seçilən alimlərdən biridir. O, iqtisadiyyat və maliyyə sahələrində tədqiqatlar apararaq, əsasən bankçılıq, maliyyə bazarları və universitetlərin elmi fəaliyyətinin idarə olunması mövzularına diqqət yetirir.

Professor Z.Məmmədovun ictimai fəaliyyəti onun iqtisadi elmin cəmiyyətə inteqrasiyasını təşviq etməsi, elmi bilikləri geniş auditoriyaya çatdırması və Azərbaycan iqtisadi siyasətinin inkişafına töhfə verməsi ilə seçilir. Alimin rəhbərliyi altında bir sıra doktorantlar və tədqiqatçılar maliyyə bazarlarının inkişafı, bank sektorunun təşkili və tənzimlənməsi kimi mövzularda dissertasiya işləri müdafiə etmişlər. Onun elmi rəhbərliyi ilə aparılan tədqiqatlar ölkədə maliyyə-kredit sektorunun müasir problemlərinin araşdırılmasına və bu sahədə yeni yanaşmaların formalaşmasına töhfə vermişdir.

***Zahid Fərrux Məmmədov 1988-ci ildə Leninqrad Maliyyə İqtisad İnstitutunun Bakı filialının "Maliyyə-Kredit" ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir (Sankt-Peterburq Dövlət İqtisad Universiteti). 1985-1987-ci illərdə D.Bünyatzadə adına Xalq Təsərrüfatı İnstitutunun ictimai peşə fakültəsinin hüquqşünas şöbəsini bitirmiş və ona hüquqşünas ixtisası verilmişdir.***

1990-1993-cü illərdə Sankt-Peterburq Dövlət Maliyyə İqtisad Universitetinin (Sankt-Peterburq Dövlət İqtisad Universiteti) "Pul tədavülü və bank işi" kafedrasında dövlət təyinatlı-məqsədli aspirant (doktorant) kimi təhsil alıb. 1994-1998-ci illərdə Türkiyə Cümhuriyyəti Mərmərə Universitetində Finans və Bankçılıq ixtisası üzrə dövlət təyinatlı-məqsədli doktorantura proqramı üzrə təhsil alıb. 2003-2005-ci illərdə Sankt-Peterburq Dövlət Maliyyə İqtisad Universitetinin "Pul tədavülü və bank işi" kafedrasında dövlət təyinatlı-məqsədli iqtisad elmləri doktoru proqramı üzrə təhsil almışdır.

1998-ci ildə RSFSR Təhsil Nazirliyinin 585 saylı göndərişinə əsasən Leninqrad Maliyyə İqtisad İnstitutunda gənc mütəxəssis kimi işə qəbul olunub. 1993-1994-cü illərdə Sankt-Peterburq Dövlət Maliyyə İqtisad Universitetinə müəllim və Sankt-Peterburq Fond birjası Depozitar Kliring Trast Mərkəzinin direktor müavini vəzifəsinə təyin olunub.

1994-2011-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "Bank işi" kafedrasında baş müəllim, dosent vəzifəsində çalışıb. 2004-2006-cı illərdə "Barmek" şirkətlər qrupunda müşavir olub. 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorunun elmi işlər müşaviri vəzifəsində çalışıb. 2011-2013-cü illərdə ADİU-nun "Bank işi" kafedrasının professoru, 2011-2012-ci illərdə RF Forex Club şirkətində makroiqtisadi tədqiqatlar mərkəzinin direktoru vəzifəsində çalışıb. 2013-2016-cı illərdə ADİU-nun "Bank işi" kafedrasının müdiri vəzifəsinə seçilib. 2016-2018-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Elm" şöbəsinin müdiri vəzifəsinə təyin olunub. 2018-ci ildən həmin universitetin (UNEC) "Elmi fəaliyyətin təşkili və idarə edilməsi" departamentinin direktoru vəzifəsindədir.

2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona iqtisad elmləri doktoru elmi dərəcəsi diplomu verilmişdir. 2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında AAK-nın qərarı ilə dosent, 2012-ci ildə isə professor elmi adlarını almışdır.



***Z.Məmmədovun elmi yaradıcılığı zəngin olub, həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə yayımlanmışdır: 12 dərslik, 25 monoqrafiya, 2 bədii-publisistik kitab, 5 metodik vəsait, 15 tədris proqramı, 100-dən çox elmi məqaləsi beynəlxalq elmmetrik bazalarda indeksləşdirilmişdir.***

Zahid Məmmədov Türkiyə iqtisadiyyatı sahəsində dərin bilik və təcrübəyə malikdir. 1993-cü ildə Sankt-Peterburq Dövlət Maliyyə İqtisad Universitetində "Türkiyənin kredit sisteminin inkişafının əsas təmayülləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Daha sonra, 1994-1998-ci illərdə Türkiyə Cümhuriyyəti Mərmərə Universitetində Bankçılıq və Finans ixtisası üzrə doktorantura təhsilini tamamlamış və doktorluq dərəcəsi almışdır. Prof. Məmmədovun Türkiyə iqtisadiyyatı ilə bağlı elmi araşdırmaları və məqalələri müxtəlif beynəlxalq konfranslarda təqdim edilmiş, dünyanın ən nüfuzlu elmi nəşrlərində çap olunmuşdur. O, Türk Asiya Stratejik Araşdırmalar Mərkəzinin nəşri olan "Öngörü" jurnalının beynəlxalq elmi şurasının üzvüdür.

Zahid Məmmədov "yaşıl iqtisadiyyat" mövzusunda bir sıra beynəlxalq elmi tədbirlərin təşkilində və keçirilməsində fəal rol oynamışdır. O, UNEC-in Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamentinin direktoru və UNEC Avrasiya Beynəlxalq Tədqiqat Mərkəzinin rəhbəri kimi, bu sahədə müxtəlif tədbirlərin təşkilinə rəhbərlik etmişdir.

2000-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün yaradılmış dissertasiya şurasının üzvüdür. 12 dekabr 2006-cı ildə Rusiya Federasiyası Mərkəzi Bankı Sankt-Peterburq Bank idarəsi və Rusiya Banklar Birliyinin birgə keçirdiyi konfransda "Bank böhranının infeksion xarakteri" mövzusunda çıxışına görə diplomla təltif olunub. 4-6 aprel 2007-ci ildə Rusiya Banklar Birliyinin XVIII qurultayının iştirakçısı olub və Rusiya Banklar Birliyinin rəsmi orqanı "Milli Bank Jurnalı" jurnalında Azərbaycanın bank sistemi haqqında müsahibəsi dərc edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 29 yanvar 2009-cu il tarixli Sərəncamı ilə (№ 16) iqtisadçı alimlərdən ibarət "işçi qrup"nun koordinatoru təyin edilmişdir.

22 dekabr 2009-cu il tarixli - Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının 6/4 nömrəli qərarı ilə iqtisadiyyat üzrə problem şurasının üzvü təyin edilmişdir.

Nüfuzlu elmi nəşrlərin, o cümlədən «Green Economics», «Белорусский экономический журнал», Диалог: политика, право, экономика, «Проблемы современной экономики»", «Экономика и управление: проблемы, решения», «Научный результат. Экономические исследования» kimi jurnalların redaksiya heyətinin üzvüdür.

Z.Məmmədovun tədqiqatları, qlobal maliyyə böhranlarının xüsusiyyətləri və onların aradan qaldırılmasında fiskal siyasət mexanizmlərinin rolunu əhatə edir. O, fiskal və monetar siyasət arasında koordinasiyanın əhəmiyyətini vurğulayaraq, bu siyasətlərin makroiqtisadi idarəetmədə birgə əməkdaşlığının vacibliyini qeyd etmişdir.

***Zahid Məmmədov 2016-cı ilin sentyabr ayında Polşanın Krınitsa-Zdruy şəhərində keçirilən XXVI İqtisadi Forumda iştirak etmişdir. Forumda "Azərbaycanın Avropa institutları ilə əməkdaşlıq: müasir vəziyyət, problemlər və perspektivlər" mövzusunda məruzə ilə çıxış etmişdir.***

Alimin "yaşıl universitet" konsepsiyası ilə bağlı Yaşıl universitet modeli haqqında yazdığı məqalələr ekoloji dayanıqlığı, enerji səmərəliliyi, innovativ texnologiyaların tətbiqi və ekoloji iqtisadiyyatın inkişafını hədəfləyən bir yanaşmadır.

***Zahid Məmmədov 44 günlük Vətən müharibəsi dövrünsün iqtisadçısı, şərhçisi və publisisti kimi tanınır. Müharibə dövründə və ondan sonra o, yerli media orqanlarında, xüsusilə də Azərbaycanın geosiyasi maraqlarını müdafiə edən platformalarda tez-tez müsahibələr vermiş, fəal mövqe nümayiş etdirmişdir.***

Zahid Məmmədov 2010-cu ildə Sankt-Peterburq İdarəetmə və İqtisadiyyat Akademiyasının I dərəcəli Şərəf ordeni ilə təltif edilmişdir.

2011-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri Fərman"ı ilə mükafatlandırılmış, 2015-ci ildə "Azərbaycan Respublikası Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmiş, 2020-ci ildə "Əməkdar müəllim" fəxri adına, 2024-cü ildə Təhsilin inkişafına yönələn kreativ təkliflərə görə "Firidun bəy Köçərli" adına mükafata layiq görülüb.

Ümumiyyətlə, professor Zahid Məmmədov alim kimi dərin elmi tədqiqatlar aparan, iqtisadiyyat sahəsində nəzəri və praktiki bilikləri birləşdirən, elmi ictimaiyyətə əhəmiyyətli töhfələr verən tədqiqatçıdır. Onun bankçılıq və maliyyə sahəsindəki araşdırmaları ölkənin iqtisadi inkişafına nəzəri və praktik töhfə verməklə yanaşı, gələcək tədqiqatçılar üçün də dəyərli mənbə hesab olunur. Onu 60 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona cansağlığı və elmi yaradıcılığında uğurlar arzulayırıq.

**akademik Ziyad Səmədzadə,**
**Milli Məclisin deputatı;**

**prof. Nazim Ekren, Türkiyə**
**Respublikası Baş nazirinin müavini;**

**prof. Maksimstsev İ.A.**
**Sankt-Peterburq Dövlət İqtisad**
**Universitetinin rektoru;**

**prof. Vladimir İvanoviç Avdiyski**
**general-leytenant, Rusiya**
**Federal Maliyyə Universitetinin**
**ordinar professoru;**

**prof. Cemal Zehir**
**Beynəlxalq liderlik,**
**texnologiya, yenilik və**
**idarəetmə konfransının sədri**

**prof.dr. Lüftihak Alpkan**
**Beynəlxalq liderlik, texnologiya,**
**yenilik və idarəetmə**
**konfransının həmsədri**

## Şərqi Zəngəzuru Naxçıvanla birləşdirəcək elektrik verilişi xətti tikiləcək

***“Şərqi Zəngəzuru İrandan keçməklə Naxçıvanla birləşdirəcək elektrik verilişi xətti tikiləcək”.***

Bu barədə Baş nazirin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayev və İran İslam Respublikasının yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadeq arasında keçirilən geniş tərkibli görüşdə bildirilib.

Şərqi Zəngəzur iqtisadi rayonunu İran ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək elektrik verilişi xəttinin tikintisinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət etməklə yanaşı, ölkələrimiz arasında elektroenergetika sahəsində əməkdaşlığın möhkəmlənməsinə də böyük töhfələr verəcəyinə əminlik ifadə olunub.

## Cari ilin birinci rübündə istehlakçılara 46 milyon manat ƏDV ödənilib

“ƏDV geri al” layihəsi çərçivəsində fiziki şəxs olan istehlakçılara pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin müvəkkil banklar tərəfindən qaytarılan həcmi cari ilin yanvar-mart ayları ərzində 46 milyon 88,3 min manatdan çox olub.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, “ƏDV geri al” layihəsi çərçivəsində fiziki şəxs olan istehlakçılara bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin yanvar-mart ayları ərzində qaytarılan həcmi 8 milyon 59,8 min manat təşkil edib.

## Naxçıvanda daşınmaz dövlət əmlakının icarəsindən dövlət büdcəsinə daxilolmalar artıb

“2025-ci ilin I rübü ərzində daşınmaz dövlət əmlakının icarəsindən dövlət büdcəsinə 149,7 min manat məbləğində vəsaitin ödənilməsi təmin olunub. 2024-cü ilin eyni dövrü ilə müqayisədə 11,7 dəfə artım qeydə alınıb”.

Bu barədə Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov deyib.

Nazir müavini bildirib ki, 2025-ci ilin I rübü ərzində daşınmaz dövlət əmlakının icarəyə verilməsi ilə bağlı 84 yeni müqavilə bağlanıb, 62 icarə müqaviləsinin müddəti uzadılıb. Ötən ilin eyni dövrü ilə müqayisədə yeni icarə müqavilələrinin sayı 2,1 dəfə, müddəti uzadılmış müqavilələrin sayı 1,9 dəfə çox olub.

2025-ci ilin I rübü ərzində Naxçıvanda 2219 daşınmaz əmlak üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış əmlakların sayında 8,1% artım müşahidə olunub.

## Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 15 faizə qədər artıb

Cari ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,7 faiz artaraq 771,9 milyon dollar təşkil edib.

Bu barədə məlumat İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) “İxrac icmalı”nın aprel sayına dair ilkin göstəricilərində qeyd olunub.

İcmala əsasən, cari ilin ilk üç ayında yeyinti məhsullarının ixracı 15,1 faiz artaraq 224,7 milyon dollara bərabər olub. İİTKM-in verdiyi məlumata əsasən, bu ilin yanvar-mart aylarında ixrac olunan qiymətli və ya azqiymətli daşlar və metallar ötən ilin müvafiq dövrünə nəzərən 46,7 milyon dollar və ya 3,4 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlar 9,1 milyon dollar və ya 76,8 faiz, kimya sənayesi məhsulları 21,9 milyon dollar və ya 33,4 faiz, şəkər 976,3 min dollar və ya 18,8 faiz, meyvə-tərəvəz 20,8 milyon dollar və ya 15,7 faiz alüminium və ondan hazırlanan məmulatlar 4,9 milyon dollar və ya 10,2 faiz, spirtli və spirtsiz içkilər 724 min dollar və ya 5,7 faiz, çay 74,1 min dollar və ya 5,1 faiz, bitki və heyvan mənşəli piylər və yağların 237,9 min dollar və ya 4,2 faiz, pambıq iplik 22,1 min dollar və ya 0,4 faiz artıb.

2025-ci ilin yanvar-mart aylarında ixrac olunan aqrar məhsulları 12,3 faiz artaraq 170,5 milyon dollar, aqrar-sənaye məhsulları 17,6 faiz artaraq 69,1 milyon dollara bərabər olub.

## “Naxçıvanda sahibkarlara 1,3 milyon manat dövlət maliyyə dəstəyi göstərilib”

“Sahibkarlara dəstək çərçivəsində 2025-ci ilin I rübü ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 37 investisiya layihəsinin maliyyələşdirilməsinə 1,3 milyon manat güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilib”.

Bu barədə Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov deyib.

Nazir müavini qeyd edib ki, 2025-ci ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilən layihələrin sayı 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4,6 dəfə, verilmiş güzəştli kreditlərin məbləği isə 7,1 dəfə artıb. Maliyyələşdirilən layihələr üzrə 51 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

2025-ci ilin I rübündə müvəkkil kredit təşkilatlarının siyahısına 2 yeni bank əlavə olunaraq 8-ə çatıb.

2025-ci ilin üç ayı ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş güzəştli kreditlərin 12 faizi Naxçıvan şəhərinin, 88 faizi isə regionların payına düşüb.

Həmin dövrdə maliyyələşdirilmiş layihələrin 43 faizi kiçik həcmli, 57 faizi isə orta həcmli kreditlərin payına düşüb və bu maliyyələşdirmə muxtar respublikanın bütün bölgələrini əhatə edir.

## Aktiv ƏDV ödəyicilərinin sayı 3 faiz artıb

Cari il aprelin 1-nə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 0,3 faiz artaraq 809,2 min, aktiv ƏDV ödəyicilərinin sayı isə 2,9 faiz artaraq



54,4 min təşkil edib. Dövlət Vergi Xidmətindən bildirilib ki, həmin tarixə aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı isə 1,3 faiz artıb və ya 220,3 min olub.

# KOBİA nümayəndələri İllik İnvestisiya Toplantısında iştirak ediblər




Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndələri Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən İllik İnvestisiya Toplantısında ("AIM Congress") iştirak ediblər.

KOBİA-dan verilən məlumata görə, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov "AIM Congress" çərçivəsində təşkil olunmuş "KOB-ların inkişaf strategiyası: Uğur üçün KOB-ların fəaliyyətinin genişləndirilməsi" mövzusunda panel müzakirədə Azərbaycanda KOB-lar üçün yaradılmış imkanlar və dəstək alətləri barədə məlumat verib. Həmçinin, KOB-ların yaşıl iqtisadiyyata keçidinə dair fikirlərini bölüşən KOBİA sədri bu sahədə agentlik tərəfindən COP29 çərçivəsində irəli sürülmüş "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə", eləcə də özəl sektorda ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqi üçün aparılan aktiv iş barədə danışıb.

KOBİA nümayəndələri "AIM Congress"in Beynəlxalq Startap Yarışmasında ölkəmizi təmsil edən CLIMASEL startap komandasının stendində də olub, gənclərlə layihəyə xarici investorların marağına dair fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, KOBİA tərəfindən "AIM Congress"ə göndərilmək üçün yerli startaplar arasında milli tur keçirilib və müsabiqədə binalar üçün ağıllı panel istehsalı layihəsi olan CLIMASEL qalib gəlib. Startap layihənin müəllifləri Bakı Ali Neft Məktəbinin tələbələridir.

# Mərkəzi Gömrük Hospitalında "Korrupsiyaya qarşı mübarizə" mövzusunda tədbir keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2025-ci il üçün Tədbirlər Planı"na uyğun olaraq Tibbi Xidmət İdarəsinin antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı 2025-ci il üçün Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası və qarşıda duran vəzifələrlə bağlı 2 aprel 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında "Korrupsiyaya qarşı mübarizə" mövzusunda tədbir keçirilib.




Tədbirdə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım, Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev, rəis müavini Nahidə Mahmudova, Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva, şöbə rəisləri, inzibati işçilər, baş və böyük tibb bacıları iştirak ediblər.

Salamlama nitqi ilə çıxış edən Şahlar Mirqasım korrupsiyaya şərait yaradan halların qarşısının alınması istiqamətdə görüləcək tədbirlər, korrupsiya əməllərinə görə tətbiq edilən məsuliyyət tədbirləri, korrupsiyaya şərait yaradan amillər, maraqların toqquşması, məlumat təhlükəsizliyi, korrupsiyanın tibb sahəsinə göstərdiyi neqativ təsirləri ətraflı məlumat verib. Eləcə də, antikorrupsiya davranış modelinin formalaşdırılması ilə əlaqədar Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə 2025-ci il üçün əməkdaşlar üçün maarifləndirici təlimlərin keçiriləcəyini bildirib.

Tədbirdə çıxış edən Mərkəzi Gömrük Hospitalının rəisi, baş həkim Bəxtiyar Musayev korrupsiyaya qarşı mübarizə çərçivəsində Hospitalın fəaliyyətinin şəffaf və uğurlu təşkili istiqamətində həyata keçirilmiş işlər, korrupsiya hüquqpozmalarına qarşı ciddi və səmərəli mübarizə üsulları, eləcə də qarşıda duran tədbirlərdən danışıb. Baş həkim Bəxtiyar Musayev bütün əməkdaşları korrupsiyaya qarşı mübarizədə fəal iştirak etməyə, bu mövzuda diqqətli və həssas olmağa dəvət edib.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Bu ilin birinci rübündə dövlət büdcəsinin gəlirləri proqnozu üstələyib

Cari ilin I rübündə xəzinədarlıq orqanları tərəfindən 320 mindən çox ödəniş tapşırığı yerinə yetirilib və dövlət büdcəsinin gəlirləri artıqlaması ilə icra olunub.

Maliyyə Nazirliyindən bildirilib ki, cari ilin yanvar-mart ayları üzrə dövlət büdcəsinin gəlirləri 9 milyard 733,4 milyon manat təşkil edib. Bu, rüblük proqnozdan 171,4 milyon manat və ya 1,8 faiz çoxdur.

Gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 4 milyard 380,6 milyon manat, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 1 milyard 430,5 milyon manat, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 10,4 milyon manat, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 136,7 milyon manat və sair daxilolmalar 154,9 milyon manat təşkil edib.




Dövlət Neft Fondundan transfert isə 3 milyard 620,3 milyon manat həcmində olub.

2025-ci ilin I rübü üzrə dövlət büdcəsinin xərcləri 8 milyard 280 milyon manat proqnoza qarşı 8 milyard 115 milyon manat, yəni 98 faiz icra edilib.

Cari ilin yanvar-fevral aylarında dövlət büdcəsi xərclərinin artıqlaması ilə icra edilməsinə baxmayaraq, mart ayında iş günlərinin sayının az olması səbəbindən (13 iş günü) xərclər I rübün proqnozuna qarşı 2 faiz, yəni 165 milyon manat az yerinə yetirilib.

# "Bakcell"in dəstəyi ilə azərbaycanlı pilot nüfuzlu yarışda

İnnovasiya və sürət lideri "Bakcell"in dəstəyi ilə azərbaycanlı pilot Gülhüseyn Abdullayev 4-6 aprel tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək "Gulf Radical Cup" yarışında iştirak edəcək. "Bakcell" brendi altında yarışacaq pilotun avtomobil nömrəsi artıq bəllidir – 55!

Qeyd edək ki, sözügedən yarış 2006-cı ildə əsası qoyulan "GulfSport Racing" motosport komandası tərəfindən təşkil olunur. Daha ətraflı məlumatı yarışın rəsmi saytına keçid edərək əldə etmək mümkündür.

bakcell

# Yeni nəsil nəzarət-kassa aparatları vasitəsilə dövriyyə 6,1 milyard manatı ötüb

Azərbaycanda indiyədək 105 min 694 ədəd yeni nəsil nəzarət-kassa aparatları (NKA) quraşdırılıb.



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata əsasən, yeni nəsil NKA-lardan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb.

Cari ilin yanvar-mart aylarında belə NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 6 milyard 114,2 milyon manat olub ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 596,2 milyon manatdan, yaxud 10,8 faizdən çoxdur.

# ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əmisi
**VAQİF NOVRUZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Qorxmaz İmanov və professor Arif Hüseynov Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əmisi
**VAQİF NOVRUZOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan İqtisadçılar İttifaqı Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əmisi
**VAQİF NOVRUZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"İqtisadiyyat" qəzetinin kollektivi Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əmisi
**VAQİF NOVRUZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əmisi
**VAQİF NOVRUZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Azərbaycanda ilk dəfə smart televizorlar istehsal ediləcək

"Taube Electronics" MMC-yə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib.



İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, şirkət tərəfindən Azərbaycanda ilk dəfə smart televizorların istehsalı layihəsi həyata keçiriləcək.

İnvestisiya dəyəri 3,5 milyon manat olan layihə çərçivəsində 20-yə yaxın daimi iş yeri yaradılacaq.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500